# GÜL TİKMƏSİNDƏ İLMƏ ÇÖZÜMÜ



Zahid Sarıtorpaq

1. yaranış ilmələri

hücrədə alatoranlıq
hücrədə kölgə kimi yıxıq vücud
səcdədə sidr qoxulu yeddi təmasın cəzbi
beş ləçəkli Gül duası - vaxtın sirli ovuntusu
hicranlarda bir Gül yeri Gül yerinin istisi
heç vaxt ilməyə gəlməyən yalqızlığın heyva rəngi
ağrının qətliyamına zorlanan ruhun məkanı
tikmədə can canda boşluq boşluğun göm-göy soyuğu
sözə çidarlanıb qalmış miskin sonun boş fürsəti
nəfsin vurulmuş boynundan asılmış ölü ehtiras
tikmədə Gül
Gülə heyrət
heyrətdən tutulmuş dilin
mübarək "ol!" kəlməsinə tükənməyən titrəyişi

2. ölüm ilmələri

havada boş öpücüklər havada quş tükü yalqız
ağrıları götürən su ölümdən öncəki dilək
gözəl qiyafətlər cadulanmış vücudlarda soluq-soluq
dikəlməz yaş kəfənlərdən yulğunların qoxusu artıq
sınıq bir gül budağında iki quş qanad-qanada
boynu bükük afətlərin şəklini soldurur zaman
ağrılar can uçağında ölüm çəkisizliyə varmada
gözün qulağın ürəyin sorğuları başlanmada
sınıq gül budağındakı iki quşdan biri uçmuş
havada heç nə heç nə
havada quş tükünün boş yeri
boynu bükük afətlərin şəkli kimi zaman soluq
bircə salxım yasəmənlə qurumuş bir insan nəfsi
boş qalmış can məkanında sonun məhrəm rütubəti

3. yaddaş ilmələri

canda yaddaş
yaddaşda toz basmış güzgü
güzgünün tozuna yazılmış boynu bükük bir kəlmə söz
yaddaşda gənc bir ana bəxtinin ləçəklərinə
beşikdə ağlayan çocuğun şeh kimi çilənən səsi
canda fələyin qara sevdalarla ölçdüyü
qəflət yuxularının sonu bilinməz uzunluğu
yaddaşda doğmuş ayın aydınlığına
dartınan suların canı kimi
canı əzablara dartınan bir aşiqin haqdan gələn yalqızlığı
yaddaşda xoşbəxtliyin fani görkəmindəki çamur sıyıqlığına
"gəl, keç" işarəsiylə başlanan ölüm yürüşü

4. eşq ilmələri

canda bütün ilmələr Gülün nəfəsiylə çözülür
bir hal sorğusundan bağrının içi uçuqlayır qafilin
ilməsindən göz yaşı damır çözüm anı gəldiyində
canda aşiqin halı bir başqa
tikmədə ilməsi bir ayrı
sona varınca hər ilmə bir çıraq olur gorunda aşiqin
canın saleh diləyinə eşqin işığı gordan da gəlir
Gülün nəfəsindən o yana yolu olmur səsin canda
sonda eşq varsa gedər-gəlməz qapanmış demək
səs də söz də ruhun yükündə Gülün nəfəsinə dəyib qayıdır
əzablardan oyadır aşiqi ölümsüzlük yağmuruna
olmuşlardan qaldırır olacaqlara qafili
səs də söz də qayıdıb qonunca dodaqlara
eşqi Gül qoxulu şükranlar sarır tikmədə
canda bütün ilmələr Gülün kəráminə bağlıdı çünki
Gülün kəramindən yağır ölümsüzlüyün yağmuru
ölümsüzlüyün yağmuru dirildir aşiqi eşqə

5. halallıq ilmələri

sona varan durdurulmur üzünə baxmırsa qədər
havada yalqız quş tükünün yerində gömgöy sükut
canda haqqın sorğusuna ilməsi qaçmış cavab
canda yaşanmış bir fani günə verilmiş halallıq kimi
bir çocuğun ilməyə gəlməz çiliklənmiş gülüşü
gülüşdə qeybə aparan canın rəhmət dolu işığı
tikmədə son ilmə
tikmədə gecikmiş zühurun ağappaq yolu
yolda can
canda Gül
sönmüş nəfsin bomboz külü

6. inam ilmələri

canın küləktutanında sözün qapısı taybatay
mizanda gül ləçəyinin mislinin çəkisizliyi
keçən günün kətan boyu axan ölgün boyaları
açıq qalmıış bir cüt gözdə göllənən nurun imdadı
divarlara mismarlanan sükutun çarəsizliyi
aşiqliyin məqamında əzablara asilərin
dərgahlarda bükük boynu sökük bağrı boş əlləri

7. qiyamət ilmələri

qırxillik gurşad kəsilib
sur dinir sonuncu kərən
suları yıxan alovun üstündə atlı kölgəsi
müjdələnmiş aşiqlərin başlanan ilk ziyafəti
burulğandan düşüb gedən minillik gor sakinləri
sağ əldə əməl dəftəri baqi ömrün yiyələri
şair sözü söz şairi ana balanı tanımır
batil bir ömrün yiyəsi su deyə-deyə yürüyür
cırılmış əməl dəftəri sol əlində parça-parça
çırpır kəfənin tozunu həşirin sonsuzluğuna

tikmədə qum dənələri hər zərrədə
boş bir fəza
hər ilmənin çözümündə çırpınan
qanad səsləri
sonuncu qırıq ilmədə sonsuz üzgün
bir uğultu
hərdən görünüb yox olan o Tək İşığın haləsi